## “Vergi ödəyicisinin debitor və kreditor borcları haqqında məlumat forması” elektron xidmətinin İstifadəçi təlimatı

**<u>“Vergi ödəyicisinin debitor və kreditor borcları haqqında məlumat forması”nın</u>** təqdim olunması üçün Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsinə ([https://new.e-taxes.gov.az/etaxes/](https://new.e-taxes.gov.az/etaxes/)) giriş edib, aşağıda qeyd olunan identifikasiya vasitələrindən istifadə etməklə elektron kabinetə daxil olmaq lazımdır:

- Asan İmza;

- SİMA Token.

Növbəti mərhələdə açılan yeni pəncərədə **“Ərizələr”** modulu seçilir.




Daha sonra “Vergi ödəyicisinin debitor və kreditor borcları haqqında məlumat forması”nın təqdim olunması məqsədilə “Yeni ərizə” xanasına müraciətə uyğun məlumat formasının adı yazılaraq axtarış nəticəsində ekranda adı əks olunan məlumat forması seçilir və yaxud **“Hamısına bax”** düyməsi vasitəsilə yeni açılan pəncərədə müvafiq məlumat forması seçilir.



Əgər istifadəçi tərəfindən daha əvvəl bu məlumat forması doldurularaq qaralamada saxlanmışdırsa, o zaman ekranda açılan pəncərədə əvvəl qaralaması yaradılmış məlumat formaları əks olunur və seçim imkanı verilir. İstifadəçi əvvəllər qaralaması yaradılmış məlumat forması üzrə davam etmək istədikdə ekranda qaralaması olan məlumat forması seçilir və bu zaman aktivləşən **"Davam et"** düyməsi sıxılır və yeni pəncərədə əvvəl doldurulmuş məlumat forması açılır və düzəliş imkanı mümkün olur.




Yeni məlumat forması yaratmaq istənildikdə isə **"Yeni ərizə yarat"** düyməsi sıxılır.




Açılmış məlumat formasında əks olunan **"Siyahıya qayıt"** düyməsini sıxdıqda ekranda əks olunan pəncərədəki **"İmtina"** düyməsini sıxmaqla məlumat formasının doldurulmasına qaldığı yerdən davam etmək, **"Xeyr, silinsin"** düyməsini sıxmaqla yaradılmış məlumat formasını silmək, **"Bəli, yadda saxlanılsın"** düyməsini sıxmaqla yaradılmış məlumat formasının yadda saxlanılması mümkün olur.




Növbəti addımda açılan ekranda “Ərizənin növü” üzrə seçim edilərək  (“Cari” və ya “Dəqiqləşdirilmiş”) “Davam et” düyməsi sıxılır.




Açılmış məlumat formasında “Vergi ödəyicisi”, “Vergi orqanı”, “Ərizənin növü” və “Debitor və kreditor borcların hesabatı dövrünün son tarixi” barədə məlumatlar avtomatik olaraq əks etdirilir.




**“Debitor borcları üzrə qalıqlar”** bölməsi üzrə “Rezidentlər üzrə” debitor borcları barədə məlumatların daxil edilməsi üçün ilk öncə “Excel faylının nümunəsi” hissəsindən müvafiq nümunə komputerə yüklənilir.




| № | VÖEN | Vergi ödəyicisinin adı | ƏDV-yə 18% dərəcə ilə cəlb olunan əməliyyatlar (ƏDV-siz) | ƏDV-yə sıfır (0) faiz dərəcə ilə cəlb olunan əməliyyatlar | ƏDV-dən azad olunan əməliyyatlar | ƏDV-yə 20% dərəcə ilə cəlb olunan əməliyyatlar (ƏDV-siz) | Əməliyyatlar üzrə CƏMİ (S3+S4+S5+S6) | ƏDV üzrə qalıq məbləği | ƏDV-yə cəlb edilməyən əməliyyatlar üzrə məbləğlər | Hesabat dövrünün sonuna cəmi qalıq (S7+S8+S9) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| | | | | | | | 0,0 | | | 0,0 |
| | | | | | | | 0,0 | | | 0,0 |
| | | | | | | | 0,0 | | | 0,0 |

Excel faylı üzrə məlumatlar aşağıdakı qaydada daxil edilir:

1. **“№”** sütununda sıra nömrələri ardıcıllıqla qeyd olunur;
2. **“Vergi ödəyicisinin VÖEN-i”** sütununda qarşı tərəfin VÖEN-i qeyd olunur;
3. **“Vergi ödəyicisinin adı”** sütununda vergi ödəyicisinin adı qeyd olunur;
4. **“ƏDV-yə 18% dərəcə ilə cəlb olunan əməliyyatlar (ƏDV-siz)”, “ƏDV-yə sıfır (0) faiz dərəcə ilə cəlb olunan əməliyyatlar”, “ƏDV-dən azad olunan əməliyyatlar” və “ƏDV-yə**

**20% dərəcə ilə cəlb olunan əməliyyatlar (ƏDV-siz)”** sütunlarında malların, işlərin, xidmətlərin və ya avanslarla bağlı yaranmış borcların ƏDV-siz dəyəri qeyd olunur;

5. **“Əməliyyatlar üzrə cəmi”** sütununda “ƏDV-yə 18% dərəcə ilə cəlb olunan əməliyyatlar (ƏDV-siz)”, “ƏDV-yə sıfır (0) faiz dərəcə ilə cəlb olunan əməliyyatlar”, “ƏDV-dən azad olunan əməliyyatlar” və “ƏDV-yə 20% dərəcə ilə cəlb olunan əməliyyatlar (ƏDV-siz)” sütunlarının cəmi məbləğləri qeyd olunur;
6. **“ƏDV üzrə qalıq məbləği”** sütununda vergi ödəyicisinin ödəmədiyi qalıq ƏDV məbləği qeyd olunur;
7. **“ƏDV-yə cəlb edilməyən əməliyyatlar üzrə məbləğlər”** sütununda ƏDV-nin vergitutma obyektini təşkil etməyən əməliyyatlar üzrə, eləcə də sadələşdirilmiş vergi ödəyicisi olduğu müddətə aid debitor borclarının müvafiq dövrün sonuna qalığı əks olunur;
8. **“Hesabat dövrünün sonuna cəmi qalıq”** sütununda “Əməliyyatlar üzrə cəmi”, “ƏDV məbləği” və “ƏDV-yə cəlb edilməyən əməliyyatlar üzrə məbləğlər” sütunlarının sətirləri üzrə cəmi qeyd olunur.

Müvafiq məlumatlar daxil edildikdən sonra “Faylı seçin” hissəsindən həmin fayl seçilərək ərizəyə əlavə edilir.




Vergi ödəyicisi kimi uçotda olmayan şəxslər üzrə debitor borcları üzrə qalıqlar barədə məlumatın daxil edilməsi üçün “O cümlədən vergi ödəyicisi kimi uçotda olmayan şəxslər üzrə” sətri qarşısındakı çekboks üzrə seçim edilərək müvafiq məlumatlar yuxarıda qeyd edilən qaydada doldurulur.




**“Debitor borcları üzrə qalıqlar”** bölməsi üzrə “Qeyri-rezidentlər üzrə” debitor borcları barədə məlumatların daxil edilməsi üçün ilk öncə “Excel faylın nümunəsi” hissəsindən müvafiq nümunə komputerə yüklənilir.




| № | Qeyri-rezidentin adı | Qeyri-rezidentin ölkəsi | ƏDV-yə 18% dərəcə ilə cəlb olunan əməliyyatlar (ƏDV-siz) | ƏDV-yə sıfır (0) faiz dərəcə ilə cəlb olunan əməliyyatlar | ƏDV-dən azad olunan əməliyyatlar | Əməliyyatlar üzrə CƏMİ (S3+S4+S5) | ƏDV üzrə qalıq məbləği | ƏDV-yə cəlb edilməyən əməliyyatlar üzrə məbləğlər | Hesabat dövrünün sonuna cəmi qalıq (S6+S7+S8) |
|---|---|---|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| | | | | | | 0,0 | | | 0,0 |
| | | | | | | 0,0 | | | 0,0 |
| | | | | | | 0,0 | | | 0,0 |

Excel faylı üzrə məlumatlar aşağıdakı qaydada daxil edilir:

1. **“№”** sütununda sıra nömrələri ardıcıllıqla qeyd olunur;
2. **“Qeyri rezidentin adı”** sütununda qeyri-rezidentin adı ingilis şriftləri ilə qeyd olunur;
3. **“ƏDV-yə 18% dərəcə ilə cəlb olunan əməliyyatlar (ƏDV-siz)”, “ƏDV-yə sıfır (0) faiz dərəcə ilə cəlb olunan əməliyyatlar”** və **“ƏDV-dən azad olunan əməliyyatlar”**

sütunlarında malların, işlərin, xidmətlərin və ya avanslarla bağlı yaranmış borcların ƏDV-siz dəyəri qeyd olunur;

4. **“Əməliyyatlar üzrə CƏMİ”** sütununda “ƏDV-yə 18% dərəcə ilə cəlb olunan əməliyyatlar (ƏDV-siz)”, “ƏDV-yə sıfır (0) faiz dərəcə ilə cəlb olunan əməliyyatlar” və “ƏDV-dən azad olunan əməliyyatlar” sütunlarının cəmi məbləğləri qeyd olunur;

5. **“ƏDV üzrə qalıq məbləği”** sütununda vergi ödəyicisinin ödəmədiyi qalıq ƏDV məbləği qeyd olunur;

6. **“ƏDV-yə cəlb edilməyən əməliyyatlar üzrə məbləğlər”** sütununda ƏDV-nin vergitutma obyektini təşkil etməyən əməliyyatlar üzrə, eləcə də sadələşdirilmiş vergi ödəyicisi olduğu müddətə aid debitor borclarının müvafiq dövrün sonuna qalığı əks olunur;

7. **“Hesabat dövrünün sonuna cəmi qalıq”** sütununda “Əməliyyatlar üzrə Cəmi”, “ƏDV məbləği” və “ƏDV-yə cəlb edilməyən əməliyyatlar üzrə məbləğlər” sütunlarının sətrləri üzrə cəmi qeyd olunur.

Müvafiq məlumatlar daxil edildikdən sonra “Faylı seçin” hissəsindən həmin fayl seçilərək ərizəyə əlavə edilir.




Daha sonra “Kreditor borcları üzrə qalıqlar” bölməsi də eyni qaydada doldurulduqdan sonra  sonra məlumat formasının göndərilməsi üçün aktivləşən “İmzala və göndər” düyməsi, qaralamada saxlanılması və daha sonra göndərilməsi üçün “Qaralamada saxla və çıx” düyməsi sıxılır.

*Qeyd: Vergi ödəyicisinin təqdim edilmiş mal (iş, xidmət, avans) üzrə müvafiq dövrə debitor və kreditor borcu olmadıqda “Bəyan ediləcək məlumatım yoxdur” sətri qarşısındakı çekboks üzrə seçim edilərək müvafiq məlumat forması təqdim edilir.*




“İmzala və göndər” düyməsi sıxıldıqdan sonra müvafiq məlumat forması imzalanaraq göndərilə və ya bu əməliyyatdan imtina edilə bilər.




“İmzala və göndər” düyməsi sıxıldıqda açılan pəncərədə “İmtina” düyməsi sıxılaraq yenidən əvvəlki pəncərəyə (məlumat formasının doldurulması pəncərəsinə) geri qayıdıla bilər.




“İmtina” düyməsi sıxıldıqdan sonra ekranda əks olunan “Sil” düyməsi sıxılmaqla məlumat forması silinə və ya əksinə bu əməliyyatdan imtina edilə bilər.







Məlumat forması imzalanaraq göndərildikdən sonra yeni pəncərədə istifadəçi tərəfindən doldurulmuş məlumatlara uyğun məlumat forması və müvafiq məlumatın göndərilməsi barədə “Bildiriş” ekranda əks olunur. Həmin pəncərədə “Çap” düyməsi vasitəsi ilə məlumat forması çap edilə, “Endir” düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər. “Bağla” düyməsi isə pəncərəni bağlamaq üçün nəzərdə tutulmuşdur.



Ərizə

×

**Vergi ödəyicisinin debitor və kreditor borcları haqqında məlumat forması**

Qeydiyyat nömrəsi 2519010000298300 | Qəbul olundu 07.02.2025 saat 12:26

Endir

## Ümumi müddəalar

| | |
|---|---|
| Vergi ödəyicisinin VÖEN/Adı | 9900001881 / "AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ |
| Vergi orqanının adı | İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsi |
| Ərizənin növü | Cari |
| Debitor və kreditor borcların hesabat dövrünün son tarixi | 31.12.2024 |
| Məlumatı təqdim edən səlahiyyətli şəxs | ELVİN HÜSEYNOV İNTİQAM OĞLU |
| Məlumatın təqdim edilmə tarixi | 07.02.2025 |

## Əlavə məlumatlar

Yuxarıda qeyd olunan məlumatların doğruluğunu və vergi orqanları tərəfindən vergitutma məqsədləri üçün istifadə ediləcəyi barədə xəbərdar olduğumu öz imzamla təsdiq edirəm.

Vergi Məcəlləsinin 16.10-cu və 130.4-cü maddələrinə əsasən vergi ödəyicisi tərəfindən vergi ili üzrə kreditor və debitor borcları barədə forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən məlumatı elektron qaydada vergi orqanına təqdim edilməlidir.

Bəyan ediləcək məlumatım yoxdur

Bağla

İstifadəçi tərəfindən təqdim olunan "Vergi ödəyicisinin debitor və kreditor borcları haqqında məlumat forması" onun "Ərizələr" modulundakı "Göndərilənlər" qovluğunda əks olunur və bu hissədə məlumat formasının statusu barədə məlumat qeyd olunur. Eyni zamanda bu hissədən də istifadəçi tərəfindən **"Çap"** düyməsi vasitəsi ilə məlumat forması çap edilə, **"Endir"** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər.


AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ YANINDA DÖVLƏT VERGİ XİDMƏTİ
Azərbaycan Respublikasının rəsmi dövlət platforması
Rəsmi vebsaytları necə tanımaq olar ?
ALPHA
Əsas səhifə
Məktublar
4
Bəyannamələr
Büdcə ilə hesablaşmalar
ƏDV Depozit Hesabı
E-qaimə-fakturalar
Ərizələr
Ödəniş
Paketlər
DSMF
Digər xidmətlər
Ərizələr 2025
Filtr
Köhnə sistemə keçid
Yeni ərizə
Hamısına bax
Göndərmək istədiyiniz ərizənin növünü daxil edin
Göndərilənlər
Qaralamalar
Təsdiq gözləyən
Sırala: Təqdim olunma tarixi
Ərizə
Qeydiyyat nömrəsi
Status
Əməliyyatlar
Vergi ödəyicisinin debitor və kreditor borcları haqqında məlumat forması
Təqdim edildi: 08.10.2025
2519010001778100
Sənəd göndərilib
Bina üzrə məlumat formasının göndərilməsi
Təqdim edildi: 08.10.2025
2519010001776700
Sənəd göndərilib
Sair Ərizə
Təqdim edildi: 07.10.2025
2519010001775000
Sənəd göndərilib
Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) qeydiyyatı
Təqdim edildi: 07.10.2025 | Son dəyişiklik tarixi: 07.10.2025
2539010002786100
İcra edilmiş
Şəxsi hesab vərəqəsindən çıxarışın verilməsi
Təqdim edildi: 07.10.2025
2519010001773600
Sənəd göndərilib
Üzləşmə aktlarının verilməsi
Təqdim edildi: 07.10.2025
2519010001772900
Sənəd göndərilib


AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ YANINDA DÖVLƏT VERGİ XİDMƏTİ
Azərbaycan Respublikasının rəsmi dövlət platforması
Rəsmi vebsaytları necə tanımaq olar ?
ALPHA
Əsas səhifə
Məktublar
4
Bəyannamələr
Büdcə ilə hesablaşmalar
ƏDV Depozit Hesabı
E-qaimə-fakturalar
Ərizələr
Ödəniş
Paketlər
DSMF
Digər xidmətlər
Ərizələr 2025
Filtr
Köhnə sistemə keçid
Yeni ərizə
Hamısına bax
Göndərmək istədiyiniz ərizənin növünü daxil edin
Göndərilənlər
Qaralamalar
Təsdiq gözləyən
Sırala: Təqdim olunma tarixi
Ərizə
Qeydiyyat nömrəsi
Status
Əməliyyatlar
Vergi ödəyicisinin debitor və kreditor borcları haqqında məlumat forması
Təqdim edildi: 08.10.2025
2519010001778100
Sənəd göndərilib
Endir
Çap et
Bina üzrə məlumat formasının göndərilməsi
Təqdim edildi: 08.10.2025
2519010001776700
Sənəd göndərilib
Sair Ərizə
Təqdim edildi: 07.10.2025
2519010001775000
Sənəd göndərilib
Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) qeydiyyatı
Təqdim edildi: 07.10.2025 | Son dəyişiklik tarixi: 07.10.2025
2539010002786100
İcra edilmiş
Şəxsi hesab vərəqəsindən çıxarışın verilməsi
Təqdim edildi: 07.10.2025
2519010001773600
Sənəd göndərilib
Üzləşmə aktlarının verilməsi
Təqdim edildi: 07.10.2025
2519010001772900
Sənəd göndərilib